# KÖNÜLLƏRDƏ MƏSKƏN SALDIM...



*Vaqif ƏLİ*

### Dahilər ölmürlər

Ağla, Azərbaycan, ey ana Vətən,
İşıqlı dünyamız zülmətə döndü,
Bir sərt hökm verdi amansız zaman,
Açıq səmamıza qaranlıq çökdü.

O, Türk dünyasının milli lideri,
Azadlıq yolunda döyünən ürək,
Sanki verilmişdi Allah vergisi,
Ona necə qıydı, görəsən, fələk?!

O, xalqın önündə böyük peyğəmbər,
Şərqin hünər payı-Atatürkdür,
Dar gündə vətənə sıravi əsgər,
Düşmən sinəsinə batan süngüdür.

Dünya siyasəti onun əqliylə
Böyük zirvələri fəth etdi, bilin,
Ən böyük dühalar onun yoluyla
Fəxri vətəndaşı olubdur elin.

Azad Azərbaycan oldu amalı,
Qurduğu bu dövlət yadigar qaldı,
Onu düşündürdü xalqın sabahı,
Haqla, ədalətlə o, zəfər çaldı.

Gör bir nələr deyir bu insan seli,
Onun şöhrətindən bizə xəbərdi,
Hər an düşünürdü bu xalqı, eli,
Xalqıma üz verən böyük kədərdi.

Dahilər ölmürlər-demiş aqillər,
Ruhu könüllərdə, qəlblərdə yaşar,
Unutmaz Heydəri gələn nəsillər,
Dahilər olurlar həmişəyaşar.

### Müəllim

Könüllərə Sevinc, fərəh gətirən,
Sözümüzün əzəlisən, müəllim,
İnsanlara xoş sədalar yetirən,
Gələcəyin dirəyisən, müəllim.

Gecəli-gündüzlü hey axtarışda,
Gözündən yayınmır adi baxış da,
Şagirdin cızdığı hər bir naxışda
Üzü gülən bəzəyisən, müəllim.

Böyük dahilərin ustadı sənsən,
Biliksən, zəkasan, həm öyrədənsən,
Ucasan, zirvəsən, şöhrət-şərəfsən,
Hər vaxt elin gərəyisən, müəllim.

### Şəhidlər

Bu gün Xiyabana düşmüşdü yolum,
Orda uyuyurlar ölməz şəhidlər,
Sanki qırılmışdı qanadım, qolum,
Üzümə baxırdı dinməz şəhidlər.

Azadlıq yolunun mübarizləri,
Gəncliyə örnəkdi mətin izləri,
Ürəklərədə yaşar söhbət-sözləri,
Özləri bircə an gülməz şəhidlər.

Babək, Nəbi, Mehdi, Koroğlu kimi,
Alınmaz qaladı onlar hər biri,
İndi ürəklərdə bilinir yeri,
Xalqım öz qəlbindən silməz, şəhidlər!

Yerdə qalmayacaq tökülən qanı,
Gəlib yetişəcək intiqam anı,
Zülmlə çıxacaq zalımın canı,
Qisas qiyamətə qalmaz, şəhidlər!

Sizi unudarmı bu el, bu torpaq,
Əbədi məşəlsiz, özü bilir haqq,
Vaqifin qəlbində yanan bir çıraq,
Hər vaxt işıq saçar, sönməz, şəhidlər!

### Ucaldın

Vətənini əziz bildin canından,
Könüllərdə məskən saldın, ucaldın,
Döyüşlərdə heç qorxmadın qanından,
Düşmənlərədən qisas aldın, ucaldın.

Hər yerdə dəf etdin düşmən zərbəsin,
Heç vaxt unudulmaz o şirin səsin,
Səngərlərdə köməyiydin hər kəsin,
Əsgərlərə həyan oldun, ucaldın.

O qaranlıq gecə, o müdhiş gecə,
Ölüm hökmü oxunmuşdu gizlicə,
Bəzən güc gəlsədə kədər sevincə,
Qəlblərdə əbədi qaldın, ucaldın.

Torpaq da ağladı, daş da ağladı,
Hicran sinəmizi çarpaz dağladı,
Vətən "oğul"-deyə qara bağladı,
Hünərinlə zəfər çaldın, ucaldın.

Xalqın and yerisən indi, ey igid,
Amalın yolunda olmusan şəhid,
El səni unutmaz, yerindi behişt,
Ölümünlə yaşa doldun, ucaldın

### Zaman neyləsin

Dərk edə bilməyən qoca dünyanı,
Zamanın özündə görür günahı,
Baş alıb gedirsən insan tamahı,
Zamanmı günahkar, zaman neyləsin?

Dəyişə-dəyişə cılızlaşırıq,
Unuduruq, həddi yaman aşırıq,
Düşünmədən həqiqətdən qaçırıq,
Zamanmı günhkar, zaman neyləsin?

Haqqı üstələyir nahaq kölgəsi,
Narahat etməyir hələ heç kəsi,
Köməyə gəlməyir vicdanın səsi,
Zamanmı günahkar, zaman neyləsin?

Vaqif, bəlkə sənə heç deyil əyan,
Süleyman mülkünü tamam puç sayan,
Bu dünya malından gözü doymayan
Əgər olmayıbsa zaman neyləsin.

### Ey insan

Bu dünya malından gözü doymayan,
Var-dövləti əldən yerə qoymayan,
İnsanlığı, həqiqəti duymayan
Oyanmaq lazımdı, oyan, ey insan.

Zalımın zülmüdü qəlbində yatan,
Şeytanın məkridi başını qatan,
Yaşamaqdan ötrü vicdanı satan,
Cəhənnəm oduna yanan, ey insan.

Varlanmaq ehtiras, şərbət hissini,
Hərə bir cür alır həyat dərsini,
Sonra anlasan da sən öz səhvini,
Səni bağışlamaz zaman, ey insan.

Özgə gözlərində tükü seçirsən,
Vardan ötrü insanlıqdan keçirsən,
Qocalsan da eşq şərbətin işirsən,
Bu dünyadan varmı doyan, ey insan.

Vaqif, yorularmı düz yolla gedən,
Ədalət yolunda can fəda edən,
Namus-qeyrətini, arını güdən
Hələ az deyildir, inan, ey insan.

*2026*